Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

## Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi




# Seçkilərlə Qarabağ sülh prosesinə iki təsir nümunəsi - Ermənistan üçün pozucu, Azərbaycan üçün sürətləndirici taktika...

**Azərbaycan daha bir mühüm seçkini arxada qoydu və ölkə artıq özünün yeni parlamentini formalaşdırır. Seçkilərə qədər belə iddialar səslənirdi ki, Azərbaycan bu mühüm tədbiri keçirdiyindən, proses Dağlıq Qarabağ münaqişəsinə də təsir edəcək və konfliktlə bağlı danışıqları arxa plana atacaq. Amma təcrübə göstərir ki, Ermənistandan fərqli olaraq, Azərbaycanda hansısa seçki Qarabağ məsələsinin gedişinə, xüsusən də danışıqlar prosesinə qətiyyən təsir etmir.**

Bunun ən bariz sübutu elə xarici işlər nazirlərinin son Cenevrə danışıqları oldu.

Xatırladaq ki, yanvarın 28-30-da Cenevrədə ATƏT-in Minsk Qrupunun həmsədrləri və qurumun fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin iştirakı ilə Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin görüşü olub. Özü də Cenevrə görüşü son illər ərzində tərəflər arasında ən intensiv müzakirələrin aparıldığı görüş olub. Tərəflər həmsədrlərin təqdim etdiyi gündəlik üzrə hərtərəfli müzakirələr apardılar. Bu sırada 2019-cu il ərzində irəli sürülmüş təkliflər və əldə olunmuş razılıqların, xüsusilə iki ölkə əhalisinin sülhə hazırlanması üçün humanitar mübadilələrin həyata keçirilməsi, həmçinin münaqişənin tənzimlənməsinin əsasını təşkil edən prinsip və elementlər, xüsusilə də münaqişənin Helsinki Yekun Aktının prinsipləri və müddəaları əsasında həlli və nəhayət, münaqişənin həlli prosesinin daha da intensivləşdirilməsi məsələlərini qeyd etmək lazımdır. Bu xüsusda, nazirlər yaxın zamanda yenidən görüşməyə razılaşıblar. Digər tərəfdən məlumdur ki, Cenevrə görüşünə qədər Azərbaycanda parlament seçkilərinin keçiriləcəyi məlum idi. Çünki bu xüsusda qərar ötən ilin sonunda verilmişdi. Amma seçkilərə rəğmən, Azərbaycan Ermənistan tərəfi ilə intensiv bir görüş keçirdi və bunun davam etdirilməsi istiqamətində də qərar qəbul etdi.

Bütün bunlar bir daha onun sübutu sayılır ki, Azərbaycanda istənilən seçki və ya referendum Qarabağ münaqişəsi ilə bağlı müzakirələrə təsir etmir. Bundan əvvəl keçirilən belə tədbirlər fonunda da Azərbaycan Qarabağ danışıqlarını davam etdirib. Amma Ermənistana gəldikdə, vəziyyət tamam fərqlidir. Burada istənilən seçki dərhal Qarabağ məsələsi ilə bağlı danışıqların uzanmasına səbəb olur. Bunun sübutu kimi bu ölkədə 2018-ci ilin sonunda baş tutan parlament seçkilərini göstərmək olar. Məhz həmin seçkiləri əsas gətirən Ermənistan Qarabağ münaqişəsi ilə bağlı danışıqları, demək olar ki, dondurdu. Ermənistanda 9 dekabrda keçirilən növbədənkənar parlament seçkilərindən sonra da Paşinyan iqtidarının formalaşdırılması prosesinin getməsi əsas gətirilərək, ötən il ərzində də kofnliktin çözümü ilə bağlı heç bir addım atılmadı. Qarabağ məsələsi ilə bağlı danışıqlarda intensivlik 2019-cu ildə mümkün olmadı.

Əslində, cari ildə də Ermənistan referendum oyununu əsas gətirib Qarabağ danışıqlarda daha bir müddət üçün fasilə yaratmağı düşünür. Məlumdur ki, Nikol Paşinyan iqtidarı ölkədə konstitusiya dəyişikliklərinə getməyə hazırlaşır. İndi Ermənistan siyasi gündəmini birbaşa bu mövzu zəbt etdiyindən, Qarabağ məsələsi yenə arxa plana atılıb. Erməni mətbuatı yazır ki, artıq növbədənkənar keçirilən parlament iclasında "Milli Məclisin nizamnaməsi", "Referendum haqqında", "Konstitusiya məhkəməsi haqqında" konstitusiya qanunvericiliyində dəyişikliklər və əlavələr edilməsi, konstitusiyada dəyişikliklə bağlı qanun layihəsi müzakirə edilib. Konstitusiyada dəyişikliklərin əsas məqsədi artıq parlamentin saytında bu şəkildə yerləşdirilib:

"Konstitusiyanın 7-ci başlığı qüvvəyə minənədək təyin edilmiş konstitusiya məhkəməsinin sədri və üzvlərinin səlahiyyət müddəti dayandırılır".

Yeni bütün bu konstitusiya və qanunvericilik dəyişikliklərinin məqsədi Konstitusiya Məhkəməsinin sədri Hrayr Tovmasyandan və fəaliyyətdə olan Konstitusiya Məhkəməsinin üzvlərindən yaxa qurtarmaqdır.

Ermənistanın "168.jam" nəşrində dərc olunan məqalədə qeyd olunub ki, bu məqsədə çatmaq üçün iqtidar hakimiyyətin qollari arasında tarazlıq və qarşılıqlı təmkin prinsiplərini yerləyeksan etməyi hədəfləyərək, ayrıseçkilik qoymadan hər növ üsula əl atır: "Artıq bu dəyişikliklərə dair çoxsaylı dəyərləndirmələr aparılıb. Bununla da heç bir məhdudiyyəti olmayan hakimiyyətin ələ keçirilməsinin baş verəcəyi qeyd edilir. Qanuni ifadələrdən asılı olmayaraq, ciddi siyasi fəaliyyətlə üzləşmişik. Bu dəyişikliklər nəticəsində hakimiyyət iri addımlarla avtotarizmə doğru irəliləməkdədir. Bu, Paşinyanın fərdi hakimiyyət səlahiyyətlərinin bərqərar edilməsi istiqamətində atılan addımlarının bariz nümunəsidir ki, bu da Ermənistana olduqca baha başa gələ bilər. Çünki beynəlxalq ictimaiyyət Ermənistanla bağlı hesabat və dəyərləndirmələrini daha da sərtləşdirəcək. Bu baş verməzsə, həmin beynəlxalq birliyin başqa bir məqsəd naminə anti-demokratik prosesə göz yumduğunu göstərəcək. Ermənistan hakimiyyətindən hər hansı bir məsələ ilə bağlı güzəşt və ya qərar verilməsi məqsədini güdəcək. Bu, Ermənistan üçün əsl problemdir, əsas çağırışdır. Bu addım ilk növbədə parlament müxalifətinə olan çağırışdır. Nəticədə hakimiyyətə gəlincə atılan bu addımlarla gələcəkdəki digər hakimiyyətə faktiki əsas hazırlayır ki, keçmişə qayıtmaq və bu hakimiyyəti ələ keçirmək prosesinə hüquqi qiymət vermək mümkün olsun. Keçmişə qarşı mübarizə apararaq öz siyasi gündəliyini quran hakimiyyət üçün bəlkə də bu normal görünür. Ancaq dövlət və cəmiyyət üçün bu, normal hal deyil. Bu yolla keçmişə qayıtmaq, keçmişi təmizləmək üçün dövrə vurmaqla hər şey əzilir. Hətta bura Qarabağ münaqişəsi də daxildir. Aydındır ki, konstitusiya oyunu davam etdiyi müddətdə Qarabağ konflikti arxa plana atılacaq. Bununla da Azərbaycan razılaşmaq niyyətində deyil. Belə olan təqdirdə danışıqlarda fasilə yaransa, savaş ehtimalı ön plana çıxacaq". Bunu rus siyasi analitik Vladimir Yevseyev də istisna etmir. O bildirir ki, Azərbaycan Ermənistanda hansısa siyasi prosesə görə Qarabağ danışıqlarını təxirə salmağı düşünmür: "Azərbaycan yeni hərbi əməliyyat üçün əlverişli məqam axtarmağa paralel olaraq ATƏT-in Minsk Qrupunun himayəsi altında görüşlər keçirə bilər. Amma bunun üçün Ermənistanın da intensiv danışıqlara təşəbbüs göstərməsi vacibdir".

Dağlıq Qarabağ münaqişəsinin nizama salınması prosesinə, xüsusilə də bir neçə gün bundan öncə Cenevrədə baş tutmuş nazirlərin iki günlük görüşünə toxunarkən ekspert bildirib ki, Bakı nəticəsi olan danışıqlarda maraqlıdır. Yevyevin sözlərinə görə, bu fonda Cenevrədə görüş olduqca uzun müddət davam edib, çünki tərəflər bəzi humanitar layihələrin həyata keçirilməsi detallarını, onların formatlarını müzakirə edir:"Mən nizama salınmaya düşünülmüş proses təsəvvür etmirəm, tərəflər uzun müzakirələr edə bilər, lakin hazırkı anda nə Azərbaycan, nə də Ermənistan həll prosesində hər hansı bir şeydən imtina edəcək, yeni dəstəklədiyi prinsipi güzəştə getməyəcək, bu münaqişə halında, siyasi həll halında isə güzəştlər qaçılmazdır. Amma danışıqlar olmasa, savaş mümkündür. Ermənistanda baş verənlər, xüsusən də konstitusiya dəyişiklikləri danışıqları arxa plana atır. Elə Bakının da qəbul etmədiyi budur".

Digər tərəfdən, Ermənistan təkcə öz daxilində yox, həm də zəbt edilmiş ərazilərdə "seçki" şouları təşkil etməklə danışıqları yubandırmağa daim xüsusi cəhd edir. Xatırladaq ki, qondarma Qarabağ rejimində yeni "prezident" və "parlament" seçkisi martın 31-də keçiriləcək. Separatçı rejimdə "prezident seçkisi" uğrunda mübarizədə Vitali Balasanyan, Masis Mailyan, Araik Arutyunyan, Aşot Qulyan, David İşxanyan və digərləri iştirak edəcəklərini açıqlayıb. "Seçki"də əsas mübarizənin hazırkı Ermənistan hakimiyyəti ilə Qarabağ klanının prezident postuna nəzarəti uğrunda aparılacağı vurğulanır. Elə bu fonda İrəvan bu məsələni də əsas gətirib Qarabağ danışıqlarını arxa plana atmağa can atır. Düzdür, Azərbaycan ərazilərini işğal edən Ermənistan ilk dəfə deyil ki, bu ərazilərdə "seçkilər" və ya "referendum" adlandırdığı müxtəlif tamaşalar keçirir. Amma onların nəticələrinə görə beynəlxalq ictimaiyyət yekdilliklə Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə dəstək, qanunsuz rejimin, eləcə də onun tərəfindən keçirilən hər hansı bir "seçkilər"in tanınmaması ilə bağlı prinsipial mövqeyini daim bəyan edir. Azərbaycanın işğal olunmuş ərazilərində "seçkilər"in izlənməsi üçün vəsait ayıran Ermənistan hökuməti bir daha ölkəmizin Dağlıq Qarabağ bölgəsinə və ona bitişik inzibati rayonlarına nəzarəti həyata keçirdiyini etiraf etmiş olur. O da faktdır ki, Azərbaycanın işğal olunmuş ərazilərində "seçkilər"i demokratiyanın göstəricisi kimi təqdim etmək cəhdləri heç bir məntiqə sığmır.

Dünya birliyi azərbaycanlı əhalinin kütləvi qırğınlarını, etnik təmizlənməsini və yüz minlərlə məcburi köçkünün təməl hüquqlarının pozulmasını pisləyir. Ermənistan hökuməti Azərbaycanın işğal olunmuş Qarabağ bölgəsinə "demokratiya ixracı"nın yalançı görüntüsünü yaratmaqla, həm də Qarabağ münaqişəsinin həlli üçün danışıqlar prosesinin irəliləməsinə maneə yaradır. Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərinin qanunsuz işğalı əsasında yaranmış status-kvo vəziyyətinin qorunub saxlanmasına xidmət etməyə salışır. Amma Bakı artıq düşmənin belə oyunlarına icazə vermək niyyətində deyil və hansısa seçki məsələsi ilə bağlı danışıqların təxirə salınması savaşı daha da yaxınlaşdırır.

***Nahid SALAYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**